**Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

I fəsil
**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1 Azərbaycan folkloru nümunələri (bundan sonra - folklor nümunələri) - Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olanlar və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri;

1.0.2. folklor nümunələrinin hüquqi qorunması -folklor nümunələrinin hər hansı qeyri-qanuni istifadədən və onlara zərər vuran digər hərəkətlərdən qorunması;

1.0.3. folklor nümunələrindən qeyri-qanuni istifadə folklor nümunələrindən istifadəyə dair bu Qanunla müəyyən edilən tələblərin pozulması; [1]

1.0.4. folklor nümunələrinə zərər vuran hərəkətlər - folklor nümunələrindən bu Qanunla müəyyən edilən istifadə hallarında onun mənbəyinin, həmçinin yarandığı yerin coğrafi adının və (və ya) mənsub olduğu xalqın (cəmiyyətin) adının dəqiq göstərilməməsi;

1.0.5. folklor nümunələrindən ənənəvi istifadə -təbii mahiyyət, məzmun və forma xüsusiyyətləri saxlanılmaqla folklor nümunələrindən cəmiyyətin uzunmüddətli təcrübəsinə əsaslanan istifadə;

1.0.6. folklor nümunələrindən adi istifadə - folklor nümunələrindən cəmiyyətin gündəlik tələbat və ehtiyaclarına uyğun istifadə;

1.0.7. folklor nümunələrindən ənənəvi və adi olmayan istifadə - folklor nümunələrinin təbii mahiyyət, məzmun və ya məqsəd, təyinat və bədii formasının dəyişdirilməsi ilə istifadə;

1.0.8. folklor nümunələrindən kommersiya məqsədi ilə istifadə - gəlir götürmək məqsədi ilə folklor nümunələrinin dərc olunması, surətinin çıxarılması, nüsxələrinin yayılması, kütləvi deklamasiyası və ifası, efirlə və ya kabellə verilməsi, habelə kütləyə çatdırılmaq üçün hər hansı kütləvi bildiriş formasında istifadə.

Maddə 2. **Qorunan folklor nümunələri**

2.1. Bu Qanunda qorunan folklor nümunələri bədii xalq yaradıcılığı, xalq sənətkardığı və tətbiqi sənət nümunələrindən ibarət olan aşağıdakı əsərlərdir:

2.1.1. bədii söz sənətinə aid olan əmək, mərasim və uşaq folkloru nümunələri, miflər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar, lətifələr, xalq dramları, atalar sözləri, zərbi-məsəllər, tapmacalar, xalq və aşıq poeziyası nümunələri, bayatılar və başqa şifahi söz nümunələri;

2.1.2. xalq mahnıları və rəqs melodiyaları, xalq-professional musiqisinə aid aşıq havaları, muğam-dəstgahlar, zərbi-muğamlar, təsniflər, rənglər və başqa folklor musiqisi nümunələri;

2.1.3. xalq rəqsləri, yallılar, oyunlar, mərasim və bayramlar və başqa hərəkətli nümunələr;

2.1.4. duyulan tətbiqi sənət və xalq sənətkarlığı nümunələri, o cümlədən qrafik sənət-şəkillər, rəsmlər, silsilə təsvirlər, kölgə rəsmləri, döymə və oyma işləri, heykəltəraşlıq, keramika, gil məmulatı, mozaika, metal üzərində işləmə, mis və bürünc tökmə məmulatları, ipəkçilik, xalçaçılıq, misgərlik, zərgərlik, dabbaqçılıq, tikmə, səbəthörmə sənəti işləri, gəbələr, butalar, geyimlər kimi folklor sənəti nümunələri, ornamentlər, naxışlar, musiqi alətləri, xarratlıq, memarlıq işləri və bu qəbildən olan başqa nümunələr.

2.2. Bu qanunun 2.1-ci maddəsində göstərilən qorunan folklor nümunələrinin yaranması zamanla və məkanla məhdudlaşmır, yeni yaranan folklor nümunələri də qorunanların sırasına daxil edilir və onların hüquqi qorunması müddətsizdir.

Maddə 3. **Folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

3.1. Folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

3.2. Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

Maddə 4. **Qanunun tətbiq sahəsi**

Bu Qanun Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, bu Qanunun 2-ci maddəsində göstərilən folklor nümunələrinə şamil edilir.

Maddə 5. **Folklor nümunələrinin hüquqi qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətləri**

5.1. Folklor nümunələrinin hüquqi qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

5.1.1. folklor nümunələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması;

5.1.2. folklor nümunələrinin hüquqi qorunmasını təmin edən qanunvericilik bazasının yaradılması;

5.1.3. Azərbaycan xalqına məxsus folklor nümunələrinin xarici dövlətlərin ərazilərində hüquqi qorunması məqsədi ilə beynəlxalq əməkdaşlığa şərait yaradılması.

~~5.2. Folklor nümunələrinin hüquqi qorunması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı öz səlahiyyətləri çərçivəsində:~~ [2]

~~5.2.1. beynəlxalq təcrübəyə uyğun olaraq mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır;~~

~~5.2.2. folklor nümunələrinin hüquqi qorunması üzrə beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir və bu sahədə əməkdaşlığı təşkil edir;~~

~~5.2.3. folklor nümunələrindən istifadəyə bu Qanunla qoyulan tələblərin pozulması hallarında dövlətin maraqlarını təmsil və müdafiə edir.~~

## II fəsil
## FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ QAYDALARI

### Maddə 6. **Folklor nümunələrindən istifadəyə tələblər**

6.1. Folklor nümunələrindən Azərbaycan Respublikası ərazisində ənənəvi və adi, o cümlədən kommersiya məqsədi ilə istifadə formaları sərbəstdir.

6.2. Folklor nümunələrindən ~~kommersiya məqsədi ilə~~ ənənəvi və adi olmayan istifadə zamanı hər hansı formada dərc olunması, surətinin çıxarılması və nüsxələrin yayılması, hər hansı kütləvi deklamasiya və ya ifa, efirlə və ya kabellə verilişlər, habelə kütləyə çatdırılma məqsədi ilə hər hansı digər kütləvi bildiriş formalarında onların təbii mahiyyət və məzmununa xələl gətirməməklə, məqsədi, təyinatı və bədii forması dəyişdirilə bilər. [3]

6.3. Digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarındankənarda folklor nümunələrindən kommersiya məqsədi ilə yalnız müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* icazəsi əsasında və istifadəyə görə haqq ödəməklə istifadə edə bilərlər. Həmin vəsait müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* hesabına köçürülür və əqli yaradıcılığın həvəsləndirilməsinə, habelə folklor nümunələrinin qorunub saxlanmasına və zənginləşdirilməsinə sərf olunur. [4]

6.4. Digər dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi qaydasını və istifadəyə görə haqqın məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. [5]

### Maddə 7. **Folklor nümunələrindən istifadəyə istisnalar**

7.1. Aşağıdakı məqsədlər üçün folklor nümunələrinin istifadəsi ənənəvi və adi olmayan forma kimi qəbul edilmir:

7.1.1. folklor nümunələri orijinal müəllif (müəlliflər) əsərləri yaradılması üçün işləndikdə;

7.1.2. folklor nümunələrindən orijinal müəllif (müəlliflər) əsərində istifadənin məqsədəmüvafiq həcmdə illüstrasiya formasında istifadə edildikdə.

7.2. Folklor nümunələrinin aşağıdakı təsadüfi istifadə formaları ənənəvi və adi olmayan hesab edilmir:

7.2.1. fotoqrafiya, yayımlanma, səsli yazılma vasitəsilə məlumat verilməsi üçün bu cür istifadənin informasiya məqsədinə lazım olan həcmdə işlədilməsi şərti ilə hər hansı cari hadisə zamanı görülə və eşidilə bilən xalq yaradıcılığı nümunələrindən istifadə edildikdə;

7.2.2. sərbəst giriş üçün daim açıq olan yerlərdə özündə folklor nümunələrini saxlayan obyektlərin təsvirinin fotoqrafiya, film və ya televiziya verilişinə daxil edilməklə istifadəsi.

### Maddə 8. **Folklor nümunələrindən istifadə zamanı mənbənin göstərilməsi**

8.1. Dərc olunmuş bütün əsərlərdə, folklor nümunələrinin kütləvi ifa və bildiriş hallarında onların mənbəyi, həmçinin istifadə olunan folklor nümunəsinin yarandığı yerin coğrafi adı və (və ya) mənsub olduğu xalqın (cəmiyyətin) adı dəqiq göstərilməlidir.

8.2. Folklor nümunələrindən bu Qanunun 7-ci maddəsində göstərilən hallarda istifadə edildikdə 8.1-ci maddənin tələbləri tətbiq edilmir.

### Maddə 9. **Folklor nümunələrindən istifadə zamanı hüquq pozuntuları**

9.1. Fiziki və hüquqi şəxslər tərəfindən folklor nümunələrindən istifadə edildikdə aşağıdakı hərəkətlər hüquq pozuntusu hesab edilir:

9.1.1. folklor nümunələrindən istifadə edildikdə təsadüfi və ya bilərəkdən edilməsindən asılı olmayaraq, bu Qanunun 6.2-ci maddəsinin tələblərinin pozulması;

9.1.2. folklor nümunələrindən istifadə edilərkən bilərəkdən və ya ehtiyatsızlıqdan bu Qanunun 8.1-ci maddəsinin tələblərinin pozulması;

9.1.3. birbaşa və ya dolayısı ilə kütləyə çatdırılmış folklor nümunələrini bilərəkdən özününkü kimi qələmə verməklə və ya folklor nümunələrinin yaranma mənbəyinə münasibətdə kütləni yanlış fikrə istiqamətləndirmək və ya onları faktiki mənbəyi olmayan digər ölkənin nümunələri kimi təqdim etməklə, folklor nümunələrindən istifadə;

9.1.4. birbaşa və ya dolayısı ilə kütləyə çatdırılmış folklor nümunələrinin bilərəkdən təhrif olunmaqla, ölkənin mədəni maraqlarına zərər vurulmaqla istifadəsi.

9.2. Folklor nümunələrindən istifadə qaydalarının pozulmasına görə müvafiq icra hakimiyyəti*orqanının yaratdığı qurum* tərəfindən qaldırılan iddia ərizələri əsasında folklor nümunələrindən bu Qanunla nəzərdə tutulan istifadə qaydalarının pozulmasına görə tutulan məbləğlər müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* hesabına köçürülür və əqli mülkiyyət sahəsində yaradıcılığın həvəsləndirilməsinə, *əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsinin* təmin edilməsinə və folklor nümunələrinin hüquqi qorunmasına yönəldilir. [6]

## III fəsil
## FOLKLOR NÜMUNƏLƏRİNƏ ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ MÜDAFİƏSİ

### Maddə 10. **Mülki-hüquqi müdafiə vasitələri**

10.1. Müvafiq dövlət orqanları folklor nümunələrindən qanuni istifadə qaydalarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdirlər.

10.2. Folklor nümunələrinin qorunması məqsədi ilə məhkəməyə müraciət edilərkən, mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa, iddiaçının tələbi ilə aşağıdakılar da tətbiq edilə bilər:

10.2.1. pozuntuya yol verən şəxsdən hüquqların pozulması nəticəsində əldə etdiyi gəlirin tutulması;

10.2.2. gəlirin tutulması əvəzinə *yüz on manatdan əlli beş min manatadək* məbləğdə kompensasiya ödənilməsi.[7]

10.3. Cinayət tərkibli pozuntulara qarşı sanksiyalar mülki-hüquqi müdafiə vasitələrinin tətbiqini istisna etmir.

M a d d ə  1 1 . **Pirat nüsxələr**

Bu Qanunla folklor nümunələrinin istifadəsinə qoyulan tələblərin pozulması ilə hazırlanan (istehsal edilən) və yayılan hər hansı folklor obyekti nüsxələri pirat nüsxələr sayılır və qanunvericilikdə müəyyən olunmuş qaydada müsadirə edilir.[8]

M a d d ə  1 2 . **Folklor nümunələrindən istifadəyə tələblərin pozulmasına görə məsuliyyət**

Folklor nümunələrindən istifadə zamanı bu Qanunda nəzərdə tutulan tələblərin pozulmasında təqsirli olan şəxslər mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

I V  f ə s i l
**YEKUN MÜDDƏALARI**

M a d d ə  1 3 . **Xarici dövlətlərdə folklor nümunələrinin hüquqi qorunması**

Xarici dövlətlərin folklor nümunələrinin Azərbaycan Respublikasında, Azərbaycan folklor nümunələrinin xaricdə hüquqi qorunması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir.

M a d d ə  1 4 . **Digər qorunma formalarına münasibət**

Bu Qanun müəllif-hüquq qanunvericiliyi, əqli və sənaye mülkiyyətinin digər növləri üzrə folklor nümunələrinə tətbiq oluna bilən, həmçinin folklor nümunələrinin qorunub saxlanılmasına aid digər normativ hüquqi aktlarda və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan qorunma formalarını məhdudlaşdırmır.

M a d d ə  1 5 . **Təfsir**

Bu Qanunla müəyyən edilən hüquqi qorunmanın folklor nümunələrinin yaradılmasına və onlardan normal istifadəyə mane olan forma kimi şərh edilməsi yolverilməzdir.

M a d d ə  1 6 . **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2003-cü il
460-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 oktyabr 2009-cu il tarixli **929-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti, 27 dekabr 2009-cu il** )
2. 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti, 09 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 6, maddə 462)**
3. 30 aprel 2013-cü il tarixli **638-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 may 2013-cü il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 484)**
4. 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyun 2018-ci il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1172)**
5. 22 dekabr 2020-ci il tarixli **230-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 yanvar 2021-ci il, 3, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 8)**

### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti, 09 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 6, maddə 462)** ilə 1.0.3-cü maddədə "**kommersiya məqsədi ilə ənənəvi və adi olmayan istifadə hallarında**" sözləri "**istifadəyə dair**" sözləri ilə əvəz edilmişdir.

[2] 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyun 2018-ci il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1172)** ilə 5.2-ci maddə ləğv edilmişdir.

[3] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti, 09 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 6, maddə 462)** ilə 6.2-ci maddədən "**kommersiya məqsədi ilə**" sözləri çıxarılmışdır.

[4] 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyun 2018-ci il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1172)** ilə 6.3-cü maddənin birinci və ikinci cümlələrinə "**orqanının**" sözündən sonra "**yaratdığı qurumun**" sözləri əlavə edilmişdir.

[5] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti, 09 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 6, maddə 462)** ilə yeni məzmunda 6.3-cü və 6.4-cü maddələr əlavə edilmişdir.

[6] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının **Qanunu ("Respublika" qəzeti, 09 iyun 2011-ci il, 117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il, 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 6, maddə 462)** ilə 9.2-ci maddədə "**dövlət**

**büdcəsinə köçürülür və intellektual**” sözləri “**müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür və əqli** ” sözləri ilə əvəz edilmişdir.

4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 23 iyun 2018-ci il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1172**) ilə 9.2-ci maddəyə “**orqanının**” sözündən sonra “**yaratdığı qurumun**” sözləri əlavə edilmişdir və 9.2-ci maddədə “**orqanı**” sözü “**orqanının yaratdığı qurum”** sözləri ilə, “**müəllif hüququ sahəsində dövlət siyasətinin**” sözləri “**əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsinin** ” sözləri ilə əvəz.

[7] 22 dekabr 2020-ci il tarixli **230-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 8 yanvar 2021-ci il, 3, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 8**) ilə 10.2.2-ci maddəsində “**şərti maliyyə vahidinin yüz mislindən əlli min mislinədək**” sözləri “**yüz on manatdan əlli beş min manatadək** ” sözləri ilə əvəz edilmişdir.

[8] 27 oktyabr 2009-cu il tarixli **929-IIIQD** nömrəli Azərbaycan Respublikasının **Qanunu** (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, 289**) ilə 11-ci maddəsinin adında "**Kontrafakt**" sözü "**Pirat**" sözü ilə, mətnində "**kontrafakt**" sözü "**pirat**" sözü ilə əvəz edilmişdir.

30 aprel 2013-cü il tarixli **638-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 19 may 2013-cü il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 484**) ilə 11-ci maddəsində “**istehsal olunan və ya yayılan**” sözləri “**hazırlanan (istehsal edilən) və yayılan**” sözləri ilə əvəz edilmişdir.